## Şəki-Zaqatala bölgəsində zərərli orqanizmlərə qarşı aparılan fitosanitar müşahidələr

Şəki-Zaqatala bölgəsinin fındıq bağlarında fitosanitar tədbirlər həyata keçirilib. Müşahidələr zamanı karantin tətbiq edilməyən fındıq mənənəsinə (Myzocallis coryli), yarpaqyeyən böcəklərə (Altica brevicollis) və unlu şeh (Phyllactinia guttata) xəstəliyinin ilkin simptomlarına rast gəlinib.

Bundan əlavə, Şəki-Zaqatala bölgəsinin qonşu Gürcüstanla sərhəd olması nəzərə alınaraq, meyvə, həmçinin fındıq bağları üçün xüsusi təhlükəli zərərverici hesab edilən qəhvəyi mərmər taxtabitinin (Halyomorpha halys) mövcudluğunu müəyyənləşdirmək məqsədilə cari ilin mart ayından etibarən davamlı fitosanitar müşahidələr aparılır və bağlarda feromon tələlər asılır. Bugünədək aparılmış makroskopik müşahidələr zamanı və feromon tələlərdə sözügedən zərərli növ aşkar olunmayıb.